*Layihə*[1]

**Azərbaycan Respublikasının Sahibkarlıq subyektlərinin hüquqları üzrə müvəkkili (biznes-ombudsman) haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

## I fəsil

## Azərbaycan Respublikası Prezidenti yanında sahibkarlıq subyektlərinin hüquqları üzrə Müvəkkilin (biznes-ombudsmanın) fəaliyyətinin və təyin edilməsinin əsasları

### Maddə 1. AP Prezidenti yanında sahibkarlıq subyektlərinin hüquqları üzrə Müvəkkilin fəaliyyətinin əsasları

1.1. Azərbaycan Respublikası Prezidenti yanında sahibkarlıq subyektlərinin hüquqları üzrə Müvəkkil vəzifəsi (bundan sonra "Müvəkkil" adlandırılacaq) Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və sahibkarlıq subyektlərinin Azərbaycan Respublikasının dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxsləri tərəfindən pozulan hüquqları və qanuni maraqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda sahibkarlıq subyektləri hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir.

1.2. Mövcud Konstitusiya qanunu Azərbaycan Respublikası Prezidenti yanında sahibkarların hüquqlarının müdafiəsi üzrə Müvəkkilin hüquqi vəziyyətini, əsas vəzifələrini və səlahiyyətlərini müəyyən edir.

1.3. Azərbaycan Respublikası Prezidenti yanında sahibkarların hüquqlarının müdafiəsi üzrə Müvəkkil və onun işçi aparatı sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunmasına və dövlət hakimiyyət və yerli özünüidarəetmə orqanlarının, həmçinin vəzifəli şəxslərin həmin hüquq və maraqları gözləyəcəyinə təminat verən hüquqi şəxs və özünün hesablaşma və digər hesabları, üzərində öz adı və Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş möhürü və blankları olan dövlət orqanlarıdır.

1.4. Müvəkkilin fəaliyyəti sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının müdafiəsini, pozulmuş hüquq və qanuni maraqlarının bərpasını təmin edən digər dövlət orqanlarının səlahiyyətlərini məhdudlaşdırmır və əvəz etmir.

---

[1] Bu layihə "Kiçik Sahibkarlığa Dəstək Layihəsi" çərçivəsində hazırlanıb. Layihənin icraçıları: 1) Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu; 2) İqtisadi Təşəbbüslərə Yardım Mərkəzi; 3) İqtisadi Tədqiqatlar Mərkəzi; 4) Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi; 5) Gələcəyə Körpü gənclər təşkilatı; 6) Xalça Dünyası Assosiasiyası. Layihə USAİD-nin maliyyələ dəstəyi ilə həyata keçirilir.

1.5. Şikayətlərin verilməsi və baxılması, onların barəsində qərarların qəbul edilməsi də daxil olmaqla Müvəkkilin fəaliyyəti haqqında məlumatlar Müvəkkilin rəsmi internet saytında yerləşdirilir.

**Maddə 2. Müvəkkilin namizədliyinə aid tələblər**

2.1. Müvəkkil 30 yaşdan yuxarı, ali təhsilli Azərbaycan Respublikası vətəndaşı olan şəxs təyin edilir.

2.2. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, qanunvericilik, icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs Müvəkkil ola bilməz.

2.3. Müvəkkil siyasi fəaliyyətlə məşğul ola və heç bir siyasi partiyanın üzvü ola bilməz. Müvəkkil hər hansı qeyri-hökumət təşkilatının rəhbərliyində təmsil oluna bilməz.

2.4. Müvəkkil bu vəzifəyə təyin olunduqdan keçən beş gün müddətində onun statusu ilə uyğun gəlməyən hər bir fəaliyyətinə xitam verməlidir.

2.5. Müvəkkil öz fəliyyətində heç bir siyasi partiyanın və ya hər hansı ictimai birliyin qərarlarını əsas tuta bilməz.

**Maddə 3. Müvəkkilin səlahiyyət müddəti**

3.1. Müvəkkil sahibkar birliklərinin rəyi nəzərə alınmaqla dövlət başçısı tərəfindən beş il müddətinə təyin olunur. Eyni şəxs iki müddətdən artıq Müvəkkil təyin edilə bilməz.

3.2. Müvəkkilin səlahiyyətlərinə Azərbaycan Respublikası Prezidentinin qərarı ilə vaxtından əvvəl xitam verilə bilər.

(“Ombudsman haqqında” AR Qanununda bu hissədə - **“Müvəkkilin müstəqilliyinin təminatları” və “Müvəkkilin toxunulmazlığı”** maddələri qeyd edilib)

## II fəsil

## AP Prezidenti yanında sahibkarlıq subyektlərinin hüquqları üzrə Müvəkkilin əsas vəzifələri, hüquqları və səlahiyyətləri

**Maddə 4. AP Prezidenti yanında sahibkarlıq subyektlərinin hüquqları üzrə Müvəkkilin əsas vəzifələri:**

4.1. Azərbaycan Respublikası ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası və xarici subyektlərin və Azərbaycan Respublikası qanunvericiliyinə, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə, xarici dövlətlərin dövlət orqanları, beynəlxalq və xarici təşkilatlarla dövlət hakimiyyəti orqanlarının qarşılıqlı əsasda müqavilələrinə uyğun olaraq xarici dövlətlərin ərazilərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikası subyektlərinin hüquqlarını və qanuni maraqlarını müdafiə etmək;

4.2. ali və yerli icra hakimiyyəti orqanlarının sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarına və qanuni maraqlarına riayət etmələrinə nəzarəti həyata keçirmək;

4.3. sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarının və qanuni maraqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərən ictimai institutların inkişafına yardım etmək;

4.4. sahibkarlıq ictimaiyyəti ilə qarşılıqlı fəaliyyət göstərmək;

4.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq yerli, regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək.

4.6. sahibkarlıq fəaliyyətinin inkişafı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqlarının və qanuni maraqlarının qorunması sahəsində dövlət siyasətinin formalaşdırılması və reallaşdırılmasında iştirak etmək.

**Maddə 5. Müvəkkilin hüquq və səlahiyyətləri:**

5.1. Şikayətlərə baxılması zamanı Müvəkkil aşağıdakı səlahiyyətlərindən istifadə edə bilər:

5.1.1. Müvəkkil dövlət hakimiyyət və yerli özünidarəetmə orqanlarından və vəzifəli şəxslərdən lazımı məlumatları, sənədləri və materialları tələb edə və ala bilər.

5.1.2. xidməti vəsiqəsini təqdim etdikdə dövlət hakimiyyət və yerli özünidarəetmə orqanlarına maneəsiz daxil ola bilər.

5.1.3. sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının müdafiəsi məqsədi ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin n.n., n.n., və n.n. maddələrində nəzərdə tutulan cinayət işləri üzrə şübhəli bilinən, təqsirləndirilən və məhkum edilən sahibkarlıq fəaliyyəti subyektlərinin, əgər bu cinayətlər sahibkarlıq fəaliyyəti sahəsində edilmişdirsə, müvəqqəti saxlandığı yerlərə və ya azadlıqdan məhrum etmə şəklində cəzaçəkmə müəssisələrinə xüsusi icazə olmadan baş çəkə bilər;

5.1.4. ərizəçinin yazılı razılığı ilə ərizəçi barəsində dövlət nəzarət və ya bələdiyyə nəzarəti çərçivəsində səyyar yoxlamada iştirak edə bilər;

5.1.5. yerli özünüidarəetmə orqanlarının sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və qanuni maraqlarını pozan qeyri-normativ hüquq aktlarını məhkəmə qaydası ilə şikayət etməklə yanaşı Müvəkkilin ərizəsinə məhkəmədə baxılmasının nəticələrinə

görə çıxardılmış məhkəmə qərarı qanuni qüvvəsinə minənə qədər həmin qeyri-normativ hüquqi aktların tətbiq edilməsinin dərhal dayandırılması haqqında göstəriş verə bilər;

5.2. Dövlət hakimiyyət orqanlarının və yerli özünüidarəetmə orqanlarının rəhbərləri və başqa vəzifəli şəxsləri Müvəkkilin qəbulunu təmin etməyə, Müvəkkilin müraciətinə yazılı formada cavab göndərməyə, həmçinin tələb olunan məlumatları, sənədləri və materialları müvafiq müraciət alındıqdan sonra on beş gündən gec olmayaraq Müvəkkilə təqdim etməyə borcludurlar. Müvəkkilin müraciətinə cavab həmin müraciətin bilavasitə ünvanlanmış olduğu vəzifəli şəxslərin imzası ilə göndərilir.

5.3. Prokurorluq orqanları, hüquq-mühafizə orqanları, dövlət hakimiyyəti orqanları Müvəkkilin müraciətlərinə baxmaq məqsədi ilə Müvəkkilin təşəbbüsü ilə işçi qrupları yarada bilərlər.

5.4. Müvəkkil fəaliyyəti dairəsinə aid olan normativ-hüquqi aktların qəbul edilməsi (normativ-hüquqi aktlarda dəyişikliklərin edilməsi və ya onların qüvvədən düşməsi) haqqında Azərbaycan Respublikası Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisi üzvlərinə, Azərbaycan Respublikası Hökumətinə, digər dövlət hakimyyət orqanlarına və yerli özünüidarəetmə orqanlarına təkliflər təqdim edə bilər;

5.5. Azərbaycan Respublikası yerli icra hakimiyyəti orqanları aktları Azərbaycan Respublikası Konstitusiyasına, AR qanunlarına, Azərbaycan Respublikasının beynəlxalq təhhüdlərinə zidd olduqda və ya sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarını pozduqda bu məsələnin müvafiq məhkəmədə həllinədək həmin aktların təsirinin dayandırılması haqqında Azərbaycan Respublikası Prezidentinə əsaslandırılmış təklif təqdim edə bilər;

5.6. Azərbaycan Respublikası Hökumətinin qərar və sərəncamları Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikası qanunlarına və Azərbaycan Respublikası Prezidentinin fərmanlarına zidd olduqda həmin qərar və sərəncamların ləğv edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə əsaslandırılmış təkliflər təqdim edə bilər;

5.7. icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş və sahibkarlıq, o cümlədən investisiya fəaliyyətinin aparılmasını əsassız çətinləşdirən normativ hüquq aktının və ya onun ayrı-ayrı müddəalarının ləğv edilməsi və ya təsirinin dayandırılması haqqında əsaslandırılmış təkliflərini Azərbaycan Respublikası Hökumətinə təqdim edə bilər;

5.8. Azərbaycan Respublikasının müvafiq icra strukturu başçısına həmin struktura daxil olan orqanlar tərəfindən qəbul edilmiş sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarını və qanuni maraqlarını pozan aktlarının ləğv edilməsi və ya təsirinin dayandırılması haqqında əsaslandırılmış təkliflərini təqdim edə bilər;

5.9. Azərbaycan Respublikası Hökuməti, digər dövlət icra strukturları, yerli özünüidarəetmə orqanları tərəfindən müzakirəsi vacib olan və sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarına və qanuni maraqlarına toxunan normativ hüquqi aktların layihələrinə rəy verə bilər. Rəyə

baxılmasının nəticələri haqqında Müvəkkil müvafiq rəy alındıqdan keçən otuz gün müddətində yazılı formada məlumatlandırılmalıdır;

5.10. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə müraciət etmək hüququna malik olan orqanlara və şəxslərə Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin normativ aktlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və ayrı-ayrı nazirliklərin normativ aktlarının Müvəkkilin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu ilə bağlı Azərbaycan Respublikası Konstitusiya məhkəməsinə sorğu ilə müraciət etmələri üçün əsaslandırılmış təkliflər təqdim edə bilər.

5.11. Müvəkkil sahibkarlıq fəaliyyəti zamanı törətdiyi cinayət(lər)ə görə həbs edilmiş vətəndaşların əfv edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinə təkliflər verə bilər.

5.12. Müvəkkilin ictimai əsaslarla fəaliyyət göstərən ictimai nümyəndələr təyin etmək səlahiyyəti vardır. Müvəkkilin ictimai nümayəndələri təmsilçilik və ekspert funksiyalarını həyata keçirirlər.

5.13. Müvəkkil öz səlahiyyəti çərçivəsində dövlət hakimiyyət orqanları ilə, yerli icra hakimiyyəti orqanları ilə, yerli özünüidarəetmə orqanları ilə və başqa şəxslərlə qarşılıqlı fəaliyyət göstərir.

5.14. Müvəkkil ictimai əsaslarla fəaliyyət göstərən ekspert, məsləhət və ictimai şuralar, işçi qruplar və digər məşvərətçi orqanlar yarada və dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarəetmə orqanlarının, sahibkar birliklərinin və ictimai təşkilatların nümayəndələrini onların fəaliyyətində iştirak üçün cəlb edə bilər.

5.15. Azərbaycan Respublikası ərazisində Müvəkkilin səlahiyyətlərinə aid məsələlər üzrə sahibkarlıq fəaliyyəti subyektlərinə məsləhət yardımı göstərən ictimai məsləhət mərkəzləri təşkil edə bilər.

## III fəsil.

## Sahibkarlıq subyektlərinin hüquqlarının və qanuni maraqlarının pozulması haqqında şikayətlərin qəbulu, baxılması və qərarların qəbul edilməsi qaydaları

### Maddə 6. Müvəkkil tərəfindən şikayətlərə baxılması qaydaları:

6.1. Müvəkkil bu Konstitusiya Qanunu qüvvəyə mindikdən sonra keçən otuz gün müddətində şikayətlərin verilməsi, baxılması və onların barəsində qərarların qəbul edilməsi qaydalarını təsdiq edir.

6.2. Müvəkkil sahibkarlıq fəaliyyəti subyektlərinin şikayətlərinə bu Konstitusiya Qanununda qeyd edilmiş xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası qanunvericiliyi ilə təyin edilmiş qaydada və həmçinin şikayətlərin verilməsi, baxılması və onlarla bağlı qərarların qəbul edilməsi haqqında Müvəkkil tərəfindən təsdiq edilən qaydalara uyğun baxır.

6.3. Müvəkkil sahibkarlıq fəaliyyəti subyektinin (ərizəçinin) şikayətinin baxılması üçün qəbul edilməsi və ya imtina edilməsi haqqında şikayətin daxil olduqdan sonra keçən on gün ərzində qərar qəbul edir və bu haqda ərizəçini 3 gün ərzində məlumatlandırır. Bundan sonra Müvəkkil ərizəçiyə onun pozulmuş hüquqlarının və qanuni maraqlarının bərpası üzrə həyata keçirilən tədbirlərin nəticələri haqqında iki ayda bir dəfədən az olmayaraq vaxtaşırı məlumat verir.

6.4. Şikayəti sahibkarlıq hüquqları və qanuni maraqları pozulmuş sahibkarlıq fəaliyyəti subyektinin razılığı ilə üçüncü şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları verə bilərlər. Belə razılıq almaq mümkün olmadıqda (həmin sahibkarlıq fəaliyyəti subyekti artıq mövcud olmadıqda), şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq almadan da verə bilərlər.

6.5. Dövlət orqanları, yerli özünüidarəetmə orqanları və onların yüksək vəzifəli nümayəndələri Müvəkkilə şikayət verə bilməzlər.

6.6. Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.

6.7. Müvəkkil ərizəçinin şikayətində poçt və ya elektron ünvanı göstərildikdə şikayətin qəbulundan aşağıdakı səbəblərlə əsaslandırılmış yazılı imtinanı ərizəçiyə göndərir:

6.6.1. yazılı formada göndərilmiş şikayətin mətnini oxumaq mümkün deyil;

6.6.2. şikayətdə yalnız o məsələdən bəhs edilir ki, həmin məsələ haqqında daha əvvəllər göndərilmiş şikayətlərlə əlaqədar Müvəkkil tərəfindən ərizəçiyə mahiyyəti üzrə əsasən yazılı formada dəfələrlə cavab verilib və eyni zamanda şikayətdə bu məsələ ilə bağlı yeni şəraitin ortaya çıxdığı göstərilmir;

6.6.3. şikayətdə qeyd edilən məsələnin mahiyyəti üzrə cavab vermək hər hansı bir dövlət sirrini və ya qanunla qorunan başqa sirrləri açmadan mümkün olmadıqda

6.8. Əgər müvəkkilin adına daxil olmuş şikayətdə ərizəçinin soyadı, adı, atasının adı (olduğu halda) və (və ya) poçt və ya elektron ünvanı göstərilməmişsə müraciət anonim hesab edilir və belə şikayətə bu Qanunun 6.8.-ci bəndində göstərilən hallar istisna olmaqla baxılmır.

6.9. Anonim şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilirsə, həmin şikayətlər Müvəkkil tərəfindən baxılmaq üçün qəbul edilə bilər.

6.10. Şikayət şifahi verildikdə Müvəkkil aparatının işçisi şikayətin məzmununu xüsusi blankda qeyd edir və ərizəçi həmin vərəqi imzalayır.

6.11. Şikayətə baxdıqdan sonra Müvəkkil aşağıdakı hərəkətlərdən birini etməyə borcludur:

6.6.1. ərizəçiyə onun hüquqlarına və qanuni maraqlarına aid olan məsələləri, həmçinin onların qorunmasının Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş forma və üsullarını izah etmək;

6.6.2. şikayəti səlahiyyətinə həmin şikayətin həllinin əsasən aid olduğu dövlət hakimiyyət orqanına, yerli hakimiyyət orqanı və ya vəzifəli şəxsə çatdırmaq.

6.6.3. Müvəkkil insan hüquqlarının pozulmasına dair şikayətdə əks etdirilmiş halların araşdırılması zamanı barəsində şikayət verilən orqanın və ya vəzifəli şəxsin həmin şikayətlə bağlı mülahizələrini öyrənməlidir. 10 gün müddətində mülahizə Müvəkkilə təqdim edilməlidir.

6.6.4. Şikayəti qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) şikayət edilən vəzifəli şəxsə yönəltmək qadağandır;

6.6.5. qərar və ya hərəkətlərində (hərəkətsizliyində) sahibkarlıq fəaliyyəti subyektləri hüquqlarının və qanuni maraqlarının pozulması müşahidə olunan dövlət hakimiyyət orqanına, yerli idarəetmə orqanına və ya vəzifəli şəxsə həmin subyektlərin hüquqlarının bərpa edilməsi və qanuni maraqlarına riayət edilməsi üzrə tədbirləri göstərməklə qərarını göndərmək;

6.6.6. dövlət orqanlarının (prokurorluq və məhkəmə orqanları istisna olmaqla), yerli hakimiyyət orqanlarının, Azərbaycan Respublikası qanunuyla dövlət orqanı və ya digər ictimai orqan səlahiyyətləri verilmiş başqa orqanların, vəzifəli şəxslərin qeyri-normativ hüquqi aktlarının, hərəkətlərinin (hərəkətsizliklərinin), əgər bu hüquqi aktlar, hərəkətlər (hərəkətsizliklər) qanuna və ya hansısa başqa normativ hüquqi akta uyğun deyilsə və sahibkarlıq fəaliyyəti sahəsində sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarını pozursa, onların üzərinə qanunsuz olaraq hansısa vəzifələr qoyursa, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə başqa maneələr yaradırsa etibarsız hesab edilməsi üçün məhkəməyə ərizə ilə müraciət etmək;

6.6.7. digər şəxslərin, o cümlədən sahibkarlıq fəaliyyəti subyekti olan şəxslər qrupunun hüquqlarının və qanuni maraqlarının müdafiəsi haqqında iddiayla məhkəməyə müraciət etmək;

6.6.8. arbitraj məhkəmələri tərəfindən ərizəçi barəsində qəbul edilmiş və qanuni qüvvəyə minmiş məhkəmə aktlarından Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada şikayət etmək;

6.6.9. dövlət hakimiyyət orqanlarına, yerli idarəetmə orqanlarına, Azərbaycan Respublikası qanunu ilə dövlət orqanı və ya digər dövlər təşkilatı səlahiyyətləri verilmiş başqa orqanlara sahibkarlıq fəaliyyəti subyektlərinin hüquq və qanuni maraqlarının pozulmasında təqsirkar olan şəxslərin intizam, inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi haqqında müraciət göndərmək;

6.6.10. Şikayətlərin baxılması zamanı Müvəkkil onların tam, hərtərəfli və obyektiv aaşdırılmasına kömək etmək üçün ekspertlər cəlb edə bilər;

6.6.11. Sahibkarlıq fəaliyyəti subyektlərinin şikayətlərinin baxılmasının nəticələri haqqında məlumat Müvəkkilin rəsmi internet saytında şəxsi məlumatların heç bir halda açıqlanmaması şərti ilə yerləşdirilməlidir.

**Maddə 7. Müvəkkilin hesabatlılığı:**

7.1. Müvəkkil Azərbaycan Respublikası Prezidentinə hesabat verir. Təqvim ilinin sonuna yaxın o öz fəaliyyətinin nəticələri haqqında məruzəni Azərbaycan Respublikası Prezidentinə göndərir. Həmin məruzədə həmçinin Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üzrə vəziyyət qiymətləndirilir və Müvəkkil sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin hüquqi vəziyyətinin təkmilləşdirilməsi haqqında öz səlahiyyətləri daxilində təkliflər irəli sürür.

7.2. Müvəkkilin illik məruzələri özünün rəsmi internet saytında yerləşdirilir və rəsmi qəzetlərdə dərc edilir.

## IV fəsil (Bu fəsil "Maddə 12" və "Maddə 9" un 2-ci bəndi istisna olmaqla bütünlüklə Ombudsman haqqında AR Qanunun III fəslidir. 9.4. bəndində bu qanuna uyğun müvafiq dəyişiklik edilib).

## Müvəkkilin fəaliyyətinin təşkili və təminatları

**Maddə 8. Müvəkkilin sosial, maliyyə və digər təminatları**

8.1. Müvəkkil şərti maliyyə vahidinin 1200 mislinə bərabər məbləğdə aylıq əmək haqqı alır.

8.2. Müvəkkil hərbi çağırışdan və hərbi toplantıdan azad edilir.

8.3. Müvəkkilə səlahiyyət müddəti ərzində diplomatik pasport verilir.

8.4. Müvəkkilə Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada məzuniyyət verilir.

8.5. Müvəkkilin səlahiyyət müddəti onun ümumi, xüsusi və fasiləsiz iş stajına daxil edilir.

8.6. Müvəkkil məzuniyyətə çıxdığı vaxt onun müalicə olunması və istirahət etməsi üçün iki aylıq əmək haqqı məbləğində ona pul təminatı verilir.

**8.7.** Vaxtından asılı olmayaraq Müvəkkil vəzifəsində işləmiş şəxs pensiya yaşına çatdıqda, hazırkı dövrdə Müvəkkil üçün müəyyən edilmiş vəzifə maaşının 80 faizi məbləğində pensiya alır.

**Maddə 9. Müvəkkilin aparatı və regional mərkəzləri**

9.1. Müvəkkilin fəaliyyətinin hüquqi, təşkilati, elmi-analitik, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatının həyata keçirilməsi üçün onun aparatı yaradılır. Yerlərdə Müvəkkilin regional mərkəzləri yaradıla bilər.

9.2. Müvəkkilin daimi iş yeri – ofisi Bakı şəhərində yerləşir

9.3. Müvəkkilin aparatı üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir olunmuş möhür və blanklara malikdir.

9.4. Aparat və regional mərkəzlər Müvəkkil tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasının Sahibkarlıq subyektlərinin hüquqları üzrə müvəkkilinin aparatı və regional mərkəzləri haqqında" Əsasnaməyə uyğun fəaliyyət göstərir.

9.5. Müvəkkilin aparatının və regional mərkəzlərinin strukturu, ştat cədvəli və smeta xərcləri Müvəkkil tərəfindən müəyyən edilir.

**Maddə 10. Müvəkkil aparatının və regional mərkəzlərinin işçilərinin hüquq və vəzifələri**

10.1. Müvəkkilin aparatının və regional mərkəzlərinin işçilərini Müvəkkil işə götürür və işdən azad edir.

10.2. Müvəkkil aparatının və regional mərkəzlərinin işçilərinin hüquqları, vəzifələri və məsuliyyəti Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunu və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilir.

**Maddə 11. Müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi**

11.1. Müvəkkilin, onun aparatının və regional mərkəzlərinin fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Büdcəsi hesabına maliyyələşdirilir.

11.2. Müvəkkilin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrılan illik vəsait ötən maliyyə ilinə nisbətən azaldıla bilməz.

**Maddə 12. Konstitusiya Qanunun qüvvəyə minməsi**

12.1. Bu Konstitusiya Qanunu Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edildikdən və Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq fərmanla təsdiq edildikdən sonra dərhal qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, __ ______ 201_-cü il***